Archive of SID


УДК 159.9.
KBT 87.2
http://dx.doi.org/10.29228/metafizika.14

*Könül Bünyadzadə**
*(Azərbaycan)*

*AMEA, Fəlsəfə İnstitutu*

# Sufi fenomenologiya – fəlsəfədə yeni baxış bucağı

***Xülasə***

*Məqalə yeni fəlsəfi sistem iddiasında olan sufi fenomenologiya haqqında ilk məlumatdır. Məqalə üç hissədən ibarətdir. "Fəlsəfi sistemlərin qısa təsnifatı" adlı ilk hissədə fəlsəfi sistemlərin yaranma səbəbləri araşdırılır və bu sırada həm dövrün, şəraitin tələbləri, din və qədim hikmətin təsirləri də təhlil edilir. Əslində, fəlsəfi sistemləri təsnifləşdirmək ümumi mənzərəni nəzərdən keçirtmək və Sufi fenomenologiyanın yerini təyin etməkdir.*

*Məqalənin ikinci hissəsində Sufi fenomenologiya tezislər şəklində xarakterizə edilir. Burada yeni fəlsəfi sistemin əsas təməl prinsipləri, yəni Sufizm və Fenomenologiyanın kəsişmə məqamları, nəzəriyyə və təcrübənin vəhdəti olmaq xüsusiyyəti, Sufizm və Fenomenologiyadan fərqlənən metodu qısa şəkildə təhlil edilir. Burada əhəmiyyətli bir məqam kimi o da vurğulanır ki, özündə dini, hətta mistik çalarları ehtiva edən Sufizmlə XX əsrə xas və daha çox məntiqə əsaslanan Fenomenologiyanı ehtiva etməklə Sufi fenomenologiya bir növ zaman və məkanın fövqündə var olan "əbədi fəlsəfənin" – "Philosophia perennis"-in təqdimidir.*

*Məqalənin üçüncü hissəsində Sufi fenomenologiyanın əsas prinsipi olan fenomenoloji reduksiyanın spesifik xüsusiyyətləri araşdırılır. Burada əvvəlcə iman faktoru təhlil edilir və məhz iman vasitəsilə "ciddi elm" olan fenomenologiya olduğu*

* Prof. Dr., AMEA-nın müxbir üzvü. AMEA, Fəlsəfə İnstitutu, İslam Fəlsəfəsi Şöbəsi.
bkonul885@hotmail.com.,
https://orcid.org/0000-0001-6862-5144



www.SID.ir

Archive of SID


*mərhələdən bir səviyyə yuxarı qalxa bilir. Sufi fenomenologiya nə imanı elmiləşdirir, nə də ağılın imkanlarını mistikləşdirir. Burada insanın rasional və irrasional bilik almaq imkanları paralel götürülür və iman ağıla, ağıl isə imana köməkçi olaraq qəbul edilir. Məqalədə vurğulanan əsas faktor Sufi fenomenologiyada reduksiyanın iki paralel prosesi – daxili (mən-in özünüdərki) və xarici reduksiya (ətraf aləmin öyrənilməsi) ehtiva etməsidir.*

**Açar sözlər:** *Sufizm, sufi təcrübə, Sufi fenomenologiya, fəlsəfi sistem, fenomenologiya, Husserl, fenomenoloji reduksiya.*

## *Giriş*

Fəlsəfənin gücü böyükdür. Bu səbəbdən özünü təsdiq etmək istəyən hər sahə mütləq öz fəlsəfəsini təqdim etmək ehtiyacı hiss edir. Maraqlıdır ki, bununla yanaşı, müasir dövrdə fəlsəfənin özünü arxa plana itələmək, lazımsızlığını vurğulamaq kimi bir təhlükəli tendensiya da yaranıb. Nəticədə fraqmentar fəlsəfi təhlillər artır, sistemli fəlsəfi yanaşmalar isə sıradan çıxarılır. Belə bir təəssürat yaratmağa çalışırlar ki, fəlsəfə elmin, texnologiyanın inkişafı ilə ayaqlaşa bilmir! Yaxud fəlsəfənin öyrətdiyi və təbliğ etdiyi həqiqətlər artıq aktual deyil! Tam radikal həddə çatanlar isə iddia edir ki, fəlsəfə çoxdan öz missiyasını yerinə yetirib və meydanı daha dinamik, daha praqmatik nəzəriyyələrə, gündəlik (!) fayda verə bilən elmlərə, sahələrə verməlidir. Ancaq danılmaz həqiqətdir ki, fəlsəfə bütövü görmək, universal olanı təhlil etməkdir, əks halda nə qədər mükəmməl olsa da, ortada fraqmentar fəlsəfi yanaşmaların xaosundan başqa şey görmək mümkün olmaz.

Fəlsəfədə yeni söz demək çox çətindir. Çünki bunun üçün gərək özündən əvvəlki sözləri "eşitməklə", anlamaqla yanaşı, cəmiyyətə lazım olan sözü də bilmiş olasan. Yoxsa dediyin söz bir məqalə, yaxud kitab səhifəsindən kənara çıxa bilməyəcək. Təqdim edilən məqalə fəlsəfədə həm yeni söz demək, həm də universal həqiqəti fərqli bir baxış bucağından görmək iddiasında olan Sufi fenomenologiya haqqında ilk məlumatdır. Təbii ki, bir fəlsəfi sistemin yerini təyin etmək üçün ümumi mənzərə nəzərdən keçirilməlidir. Biz də əvvəlcə fəlsəfə tarixinə qısa bir nəzər salaq və fəlsəfi sistemlərin qısa təsnifatını verək.


www.SID.ir

Archive of SID


## *Fəlsəfi sistemlərin qısa təsnifatı*

Fəlsəfə tarixində bir çox mükəmməl fəlsəfi sistem var. Onların müəllifləri ayrı-ayrı dövrlərdə, məkanlarda yaşayıb yaratmış mütəfəkkirlər, həm də bilavasitə ünsiyyətdə olan, hətta müəllim-tələbə, yaxud həmkar olan filosoflardır. İstər-istəməz sual yaranır: bəzən bir-birini tamamlayan, bəzən kökündən əks mövqelərdə duran fəlsəfi sistemlər hansı zərurətin nəticəsidir? Təbii ki, səbəblər müxtəlifdir, ancaq fəlsəfə tarixi prizmasından baxanda, bir qanunauyğunluq sezmək mümkündür. Yeri gəlmişkən, belə bir əhəmiyyətli faktdı da vurğulayaq ki, fəlsəfi sistemlərin yaranması elmin, cəmiyyətin inkişafı ilə hər zaman paralel getmişdir. Yəni düşüncənin səviyyəsi özünü yalnız fəlsəfədə deyil, insanın aid olduğu bütün sahələrdə özünü göstərmişdir.

Bəzi fəlsəfi sistemlər dövrün xaotik düşüncələrini öz mülahizələri ilə bir yerə toplayan filosofun əsəridir. Məsələn, məlum olduğu kimi, antik dövrdə fəlsəfi söhbətlər zamanı gündəlik hadisələrdən tutmuş, göy cisimlərinin hərəkətinə qədər hər bir şeyin fəlsəfi izahı verilir. Bunun bariz nümunəsi kimi Platonun "Dialoqlar"ını göstərmək olar. Burada iki əhəmiyyətli məqama diqqət yönəldək. Birincisi, bu söhbətlər bir insanın həyatında, problemlərinin, onu narahat edən sualların cavablandırılmasında fəlsəfənin hansı yer tuta, necə bir rol oynaya göstəricisidir. İkincisi, "Dialoqlar"da bir çox şəxsin adı çəkilsə də, bu söhbətlərin, daha doğrusu, ideyaların ümumi xəttini tutan, bütöv mənzərəni görən yalnız Platon olmuşdur. Məhz onun təqdimatında nəinki Sokratın şəxsiyyəti gerçəklik qazandı, həm də bu ideyalar özündən sonra bir çox fəlsəfi sistem üçün mənbə rolunu oynaya bildi. Yəni əslində düşüncələrin, ideyaların xaosu hər zaman olmuşdur, olacaq. Filosofun missiyası bu xaosu nizama salmaqdır ki, həm dəyərli ideyalar kölgədə qalmasın, həm də başqa fikir sahibləri üçün mənbə rolunu oynaya bilsin. Nə üçün məhz mənbə? Çünki sonrakı dövrlərdə istənilən fəlsəfi sistem bu və ya digər şəkildə Platona müraciət etməli olmuş: onu ya inkar, ya təsdiq etməklə, öz ideyalarına orada dəstək tapmaqla, bir növ özünü də təsdiq etmiş olur. Sistem məhz ideyalar mənbəyi ola bilməkdir.

Fəlsəfi sistemlərin yaranmasının daha bir zəmini isə filosofun artıq mövcud sistemlərin, elmlərin natamamlığını dərk etməsini, onların reallığı tam əks etdirməsini görməsidir. Buna nümunə kimi Aristotelin sistemini göstərmək olar. İstər kateqoriyalar, istərsə də prinsiplər baxımdan hikmətin sirayət edə biləcəyi bütün sahələri ehtiva edən Aristotel öz sistemi ilə məhz çatmayan, naqis qalan tərəfləri tamamla-


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 3, sıra 11 ISSN 2617-751X (Online)

mağı bacardı və bu səbəbdən onun da mükəmməl fəlsəfi sistemindən bu gün də hansı isə yeni başlanğıc götürmək mümkündür. Belə düşünmək olar ki, məhz olanları kamilləşdirməyi bacardığına görə, o, haqlı olaraq, ilk müəllim adlandırılıb. Yəni burada artıq ayrı-ayrı ideyalardan daha çox, mövcud elm, hətta sistemlərin bütöv mənzərəsini, onlar arasında ümumi qanunauyğunluğu görə bilmək istedadı önə çıxır.

Bəzən filosoflar qədimdən gələn bir hikməti öz dövrünə qədər izləməklə onun sistemini təqdim etmək ehtiyacı hiss edirlər. Bununla onlar bir növ zaman və şəraitin çərçivəsinə sığmayan, tarix boyu süzüb gələn hikməti davam etdirmiş olurlar. Məsələn, Şihabəddin Sührəvərdinin İşraq fəlsəfəsi, müəllifin özünün də iddiasına görə, Platon və ondan əvvəlkilərin öz mənəvi təcrübələrində şahid olduqları hikmətin yenidən dirildilməsi, aydınlanmasıdır. (Geniş bax: İslam düshüncesi tarihi, 1990, s. 414). «Mutarahat» adlı kitabında filosofun vurğuladığına görə, işraq hikmətinin ilk öncə qədim mifik rahib-kralları olan Kiumart, Fəridun və Keyxosrovda olduğunu, daha sonra Pifaqor və yunanlılar arasında olub, sonra Platona keçdiyini və son olaraq da Zun-Nun Misri və Əbu Yəzid Bistami kimi müsəlman sufilərə keçib (Geniş bax: İslam düshüncesi tarihi, 1990, s. 417). Başqa sözlə desək, Sührəvərdi məhz əbədi fəlsəfənin sistemini təqdim etmək iddiasında olmuşdur.

Fəlsəfi sistem həm də eyni şeyə fərqli rakursdan baxış bucağıdır. Məsələn, orta əsrlərdə həm idealist, həm də materialist təməlli, yaxud həm panteist, həm də monoteist mövqeli sistemlər mövcud olmuşdur. Bunu baxış bucaqlarının fərqi də adlandırmaq olar. Əslində, Yeni Dövrdə, elə XIX-XX əsrlərdə də təqdim olunan fəlsəfi sistemlərin əksəriyyəti belə bir düşüncənin məhsuludur: dövrün tələblərinə, şərtlərinə uyğun sistem təqdim etmək. Yəni hər filosof öz gördüyü və dərk etdiyi həqiqəti sistemli şəkildə ifadə edir. Bunun nəticəsi olaraq, ekzistensializm, praqmatizm, personalizm yarandı.

Fəlsəfə tarixində maraqlı cəhdlərdən biri də mövcud vəziyyətdəki təfəkkürün tam böhran halından çıxarılmasının mümkünsüzlüyünü qəbul edən filosofların onların məhvi üçün çalışmaqları olub. Onların sistemi məhz onlrın davamlı nihilist çağırışlarında, var olanı dağıtmaq üçün təklif etdikləri üsullarında əks olunur. Onlar bunu yeni fəlsəfi sistem deyil, yeni insanlığın quruculuğu da adlandırırlar. Nitsşe kimi. Maraqlıdır ki, bəzi mürəkkəb, yaranış və idrak prosesini hərtərəfli ehtiva edən sistemlərdən fərqli olaraq bu tipi fəlsəfələr, yəni birbaşa insanlığın mahiyyətinə nüfuz


www.SID.ir

Archive of SID


edən, üsyankar ruhda olan ideyalar daha tez yayılır, daha tez qəbul edilir. Halbuki, Aristotel, Kant, Hegel kimi filosofların görüşləri əksər hallarda mütəxəssislər, hətta sırf həmin filosofun araşdırmaçıları tərəfindən anlaşılır. Nitsşe kimi filosofların ideyaları isə mövcud şəraitdəki düşüncələrin axınını dəyişmək, daha dəqiq desək, durğunluğunu hərəkətə gətirmək məqsədi daşıyır və bu səbəbdən geniş yayılır. Yəni burada da fəlsəfə bilavasitə insanların həyatının içinə girir. Oxşar mövqeli fəlsəfələr Renessans dövründən sonra da yazılırdı. Qərb filosoflarından bəziləri təfəkkürləri kilsənin hakimiyyətindən xilas etməyə, yaxud onların paralel mövcudluğunu təmin etmək üçün yollar axtarırdılar. Təbii ki, onların fəlsəfəsi də məhz bu düşüncənin inikası olurdu. Bəli, filosoflar məhz məhdudluğun əleyhinə çıxıblar, dinamika axtarıblar, çünki yaradılış prosesində hərəkət var. Yaradılışı dərk eləmək üçün isə mütləq həmin hərəkətin mahiyyətini anlamaqla onunla ayaqlaşmaq lazımdır.

Fəlsəfi sistemlərin yaranmasında dinin də çox böyük rolu var. Məsələ burasındadır ki, istər ilahi vəhy olsun, istərsə də onlara istinadən yazılmış əsərlər olsun, mütləq özündə dərin bir hikmət ehtiva edir. Çoxsaylı tərəfdarlar, davamçıları məhz həmin hikmətin ətrafına yığılır, ondan başqa cərəyanlara rəvac alır. Təməlində din olan fəlsəfi sistemləri iki qola ayırmaq mümkündür. Birincilər, apologetikalardır ki, əslində fəlsəfədən çox, dinin özünün təqdimatı, özünüifadəsidir. Burada bütün diqqət yalnız dinin öz prinsiplərinə, hökmlərinə yönəlir və hər hansı müzakirəyə yer saxlamır. Bunlarla yanaşı, dinin məhz öz fəlsəfəsini açan cərəyanlar da vardır. Kabbala, buddizm, təsəvvüf kimi. Hər nə qədər onların mistik çalarını ön plana çəkməyə çalışsalar da, əslində, bu cərəyanlar dinin fəlsəfə ilə paralel mövqedə durmasının göstəricisidir. Onu da vurğulayaq ki, hər nə qədər bəzən onları fəlsəfə kimi qəbul etməsələr də, bu, onların ehtiva etdiyi həqiqətə və hikmətə heç bir zərər gətirmir. Fakt budur ki, bu təlimlərdən hər birinin öz sabit, hətta başqa sahələrə təsir gücünə malik təməli və ideya xətti var.

İkinci tip dini fəlsəfi sistemlərdə isə din köməkçi, daha dəqiq desək, pərdə vəzifəsini daşıyır. Burada filosofların məqsədi dinin təzyiqlərindən tədricən uzaqlaşıb öz müstəqil ideyasını inkişaf etdirməkdir. Dinin ən güclü silahı imandır və filosoflar imanı saxlayıb sadəcə onun obyektini dəyişdirməklə öz fəlsəfələrini təqdim edirdilər. Məsələn, Dekart kimi. Əslində, fəlsəfə tarixində özünə yer tutan filosofların əksəriyyəti öz təlimində iman faktorunu gizli və ya aşkar şəkildə qoruyub saxlamışdır. Və bu, bir faktdır ki, bəzi sistemlərdə dinin, bir başqasında isə rasional təfəkkürün


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 3, sıra 11 ISSN 2617-751X (Online)

ağırlığı çox olub. Buna nümunə olaraq orta əsrlərdə Akvinalı Fomanın, Nikola Kuzanlının, Renessans dövründən sonra Qərbdə yeni yaranan fəlsəfələri, yaxud o cümlədən Leybnisin, İslam Şərqində İbn Sinanın, İbn Rüşdün fəlsəfələrini göstərmək olar. Belə fəlsəfələrdə din konkret çərçivədən çıxır və burada həm başqa dinlərin prinsipləri, həm qədim inancların hikmətləri, həm də özündən əvvəlki fəlsəfi sistemlər ehtiva olunur.

Fəlsəfi sistemlər sadəcə hər hansı bir ideyanı dəstəkləmək missiyası da daşıya bilir. Məsələn, konkret situasiyadan yaranan maksizm daha sonra sovet quruluşunun əsas ideologiyasına çevrildi. Müəyyən dəyişikliklərə məruz qalsa da, əsas prinsipləri qoruyub onu bütöv bir imperiyanın hakim ideyasına çevirə bildilər. Məhz müəyyən ideologiya ilə silahlanmış imperiya, yaxud dövlət daha üzünömürlü və uğurlu bir tarix yaşayır, nəinki vahid gücə tabe olan və bir diktatorun maraqlarına xidmət edən. Bu "ənənə", yəni fəlsəfi ideologiya ilə silahlanmağın müsbət nəticəsini görən bəzi siyasətçilər öz siyasətlərinin fəlsəfəsini yazmağa başladılar. Əslində, hələ antik dövrdə də dövlətin, dövlətçiliyin fəlsəfəsi yazılmışdır. Məqaləmizin əvvəlində də qeyd etdiyimiz kimi, fəlsəfə gücdür və bu gücdən həm də dövlətçilikdə istifadə etməyi filosoflar hər zaman tövsiyə etmişdirlər. Platon, Aristotel, yaxud İbn Xəldun təsadüfən uğurlu dövlətin, düzgün idarəçiliyin fəlsəfi təhlilini vermirdilər. Bu, bir dövlətin uğurlu və uzunömürlü siyasətinin təhlilidir.

Bir də var konkret siyasətin fəlsəfəsi yazıla. Məsələn, XX əsrdə yaranmış qloballaşma fəlsəfəsi kimi. Bu, konkret bir dövlətin, hətta bir təşkilatın gizli marağı naminə bütün digər dəyərlərin silib-süpürülməyidir. Burada ən vacib fakt və məqsəd coğrafi işğaldan daha çox, düşüncələrin işğalıdır. Məhz işğal! Belə ki, hakim ideya, daha dəqiq desək siyasi və iqtisadi maraq bütün digər dəyərləri üstələməyə, lazım gələndə məhv etməyə ünvanlanır. Ən vacibi və yəqin ki, təhlükəli tərəfi isə budur ki, İmperiyadan fərqli olaraq burada dövlətlərin ərazi bütövlüyü qalsa da, daxilən, düşüncə baxımdan zəbt edilir və milli identiklik itir. Burada çox əhəmiyyətli bir məqam var: bir var, milli identiklik universal həqiqətlərə qarışır, bir də var vahid siyasətə mane olan faktor kimi məhv edilir. İkinci hal ideologiyalara xasdır. Qayıdaq birinci hala.

Filosoflar öz düşüncələrinin radiusuna uyğun olaraq ya Pifaqor kimi univesal dünyanı, kainatı ehtiva etmək, ya Plotin, İbn Sina kimi yaradılışın, emanasiyanın


www.SID.ir

Archive of SID


səviyyələrini dərk etmək, ya da Hegel kimi Mütləq Ruhun təzahür hallarını izləmək istəyiblər. İstənilən halda təqdim edilən fəlsəfə məhdud zaman və məkan çərçivəsi fövqünə qalxır. Əlbəttə, filosofun ideyalarında onun kimliyi, yaşadığı dövr sətiraltı olaraq özünü mütləq göstərir. Bunu hər fəlsəfədə hiss etmək, yaxud hermenevtik metodla təyin etmək olur. Sadəcə konkret obyektdən – insan, cəmiyyət, kainat – asılı olmayaraq məhz universal həqiqətlərə üz tutub, onları təqdim etdiklərinə görə, belə fəlsəfələrdə millət, kimlik, zaman öz əhəmiyyətini itirir, yaxud fenomenologiya termini ilə desək, mötərizəyə alınır. Bununla belə, filosofların öz milliyyəti və mənsub olduqları regionun spesifikliyi onların fəlsəfəsində mütləq özünü büruzə verir. Belə demək mümkündürsə, hər filosof öz milli dəyərləri sayəsində fəlsəfə tarixində orijinal iz qoya bilir. İstər istəməz sual yaranır ki, əgər fəlsəfədə millilik yoxdursa və söhbət ümumbəşəri dəyərlərdən gedirsə, hansı milli dəyərlərdən söz gedə bilər? Bəli, universal həqiqətlərin açılmağına xidmət etməli olan fəlsəfədə millilik əsas amil deyil, hətta mane olur. Lakin unutmaq lazım deyil ki, məhz təfəkkürlərdəki milli çalarlar yeni fəlsəfi sistemin yaranmasına şərait yarada bilir. Buna nümunə olaraq istər Sührəvərdinin İşraq fəlsəfəsini, istərsə də Hegeli, yaxud Haydeggeri göstərmək olar. Milli ruh fəlsəfənin özündə, diqqət çəkdiyi prinsiplərdədir. Orda hər hansı milli məsələ qaldırılmır, milli sual həll edilmir, ancaq fəlsəfənin təməli məhz milli hikmətə söykənir və əsas özəlliyi, fəlsəfə tarixində yeni səhifə olmasını şərtləndirən bu faktdır.

Millliklə yanaşı, regionun, daha dəqiq desək, Şərq və Qərb qütbünün də rolu böyükdür. Fərq istər qədim dövrdə, istər orta əsrlərdə, istərsə də modern çağda olmuş və ilk növbədə filosofların inancından, dəyərlər sistemindən irəli gəlir. Bu fərqi konfusizmlə Aristotel, yaxud İbn Sina ilə Kant arasında rahat görmək mümkündür. Xüsusilə vurğulayaq ki, bu, birinin digərindən üstünlüyü, yaxud dərinliyi anlamına gəlmir. Qətiyyən. Bu, eyni obyektə fərqli baxış bucağından baxmaqdır. Ən vacibi isə fərqli hikmət təməlinə söykənməkdir. Lakin yaranan fəlsəfi sistemlər bəzən çox dərinə gedəndə və tam təməl hikmətlərə söykənmək istəyəndə regionlar arasında üzvi əlaqə, həqiqətin vahidliyi ortaya çıxır. Hələ qədim dövrdə antik filosoflar öz hikmətlərini tamamlamaq, öz düşüncələrindəki bəzi qaranlıq məqamlara işıq salmaq üçün məhz Şərqə üz tuturdular. Məlum faktdır ki, Pifaqor Qədim Misirdən, Babilistandan, yaxud Demokrit Qədim Misirdən, Babilistandan, Azərbaycandan, Ərəbistandan, Hindistandan, Həbəşistandan öyrəndiyi hikmətlər onların fəlsəfəsini daha dərin,


www.SID.ir

Archive of SID

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

daha ümumbəşəri olmasına öz töhfəsini verə bilib. Sonralar da Qərb filosofları öz fəlsəfi sistemlərini quranda Şərq müdrikliyinə üz tututrdular. Məsələn, Hegel həqiqətin tam və kamil şəkildə dərki üçün məhz islama – məhəmmədilərə müraciət etməyi tövsiyə edirdi: “Əgər Vahid olanı onun gözəl saflığı və ucalığında nəzərdən keçirmək istəyirsinizsə, məhəmmədilərə müraciət etmək lazımdır” (Qeqel, 1977, s.400). Filosof öz sistemini məhz bütün mükəmməlliyi ilə çatdırmaq üçün həm Şərqin, həm də Qərbin hikmətini öyrənib qəbul etmişdi. Xatırladaq ki, məhz belə bir sintezin nəticəsində Qərbdə Renessans baş verdi və təfəkkürdəki oyanış idi ki, elmin, sənətin, ədəbiyyatın, ümumiyyətlə yaradıcılığın bütün sahələrində özünü göstərdi və insanlıq öz təfəkkürünün daha bir qatını öyrənə bildi. Qərb maarifçilərinin, XIX əsrin filosoflarının görüşlərində də Şərqə müraciət ənənələrini görmək mümkündür. Hegelin sözləri ilə desək, həqiqəti tam öyrənmək istəyən mütləq Şərq və Qərb təfəkkürünün kəsişən məqamını tapmalı olurdu və onu öz baxış bucağından təhlil edib, sistemli ifadəsini verməyə çalışırdı. Yeri gəlmişkən, bizim də təqdim etdiyimiz fəlsəfi sistem bu prinsipə əsaslanır. Bu səbəbdən biz təkrar qayıdacağıq bu nöqtəyə.

Fəlsəfi sistem nə qədər dərin, genişehtivalı olarsa, bir o qədər uzunömürlü və faydalı ola bilir. Kimsə fəlsəfədə yeni söz deyir, bir başqası isə artıq deyilmiş sözləri bütöv fəlsəfi sistem halına salır. Bunu daha yaxşı din tarixi vasitəsi ilə izah etmək olar. Bir var rəsullar, yəni kitab şəklində olan ilahi vəhyi bəşəriyyətə çatdarmağa məsul olan peyğəmbərlər. Bir də var nəbilər, mövcud dini yayan, təbliğ edən seçilmiş şəxslər. Eləcə də fəlsəfədə. Öz fəlsəfi sistemi olan filosoflar fəlsəfə tarixində yeni səhifə olur, insan təfəkküründə yeni bir səviyyə açırlar.

### *Sufi fenomenologiya tezislərdə*

Sufi fenomenologiya yeni bir fəlsəfi sistem olmaq iddiasındadır və bu səbəbdən onun mahiyyəti, mənbəyi və metodları haqqında ümumi bir məlumat verək:

- Sufi fenomenologiya Şərqə, daha dəqiq desək, orta əsr İslam Şərqinə məxsus dini-fəlsəfi təcrübənin – Sufizmin və XX əsrə məxsus Qərbə məxsus, məntiq və rasional təfəkkürə əsaslanan fəlsəfənin – Fenomenologiyanın kəsişməsinin ifadəsidir. Bu, eklektik bir birləşmə deyil, məhz hər ikisinin kəsişdiyi məqamın, vəhdətin fəlsəfəsidir. Onu da xüsusilə vurğulayaq ki, bu, hər birinə məxsus prinsip və nəzəriy-


www.SID.ir

Archive of SID


yələri olduğu kimi təkrarlamaq deyil, qarşılıqlı təsir nəticəsində yaranmış yeni baxış bucağının təqdimidir. Başqa sözlə desək, Sufi fenomenologiya hər ikisini ehtiva etməklə yanaşı, həm də özünün əhəmiyyətli əlavələri olan yeni bir fəlsəfədir. Yuxarıda da qeyd etdiyimiz ki, fəlsəfə bütövün təqdimidir, detalların deyil. Bu mənada, Sufi fenomenologiya müəyyən bölgənin təfəkkürünün ifadəsi deyil, özündə Şərq və Qərb baxış bucağını birləşdirməklə məhz universal həqiqətin hərtərəfli inikası olaraq çıxış etmək iddiasındadır. Onu da əlavə edək ki, orta əsrlərə xas, özündə dini, hətta mistik çalarları ehtiva edən Sufizmlə XX əsrə xas və daha çox məntiqə əsaslanan Fenomenologiyanı ehtiva etməklə Sufi fenomenologiya bir növ zaman və məkanın fövqündə duran "*əbədi fəlsəfənin*" – "*Philosophia perennis*"i təqdim etmiş olacaq.

- Sufi fenomenologiya təcrübə və nəzəriyyənin vəhdətidir. Tarixdə çox mükəmməl fəlsəfi sistemlər mövcuddur. Lakin bəşəriyyətin mənəvi və ya düşüncə böhranı zamanı, yaxud bir insanın şəxsi həyatında onun düzgün həyat tərzi sürməsində, gündəlik problemlərinin həllində məhz təcrübə ilə vəhdətdə olan fəlsəfələr kömək edə bilir. Bu, aksiomdur ki, problem düşüncədə yaranmış düyündür və onun çözülməsi məhz düşüncədə başlamalıdır. Xatırladaq ki, Antik dövrdə ən böyük fəlsəfi həqiqətlər dialoqlarda açılırdı. Yeni dövrdə də Qərb filosofları tez-tez Şərq fəlsəfəsinə, xüsusilə buddizmə üz tuturdular. Öz həyatlarını o işıqda nəzərdən keçirməklə, dəyərləndirmə meyarlarına da dəyişiklik edirdilər. Buna nümunə olaraq Didronu, Şopenhaueri, Nitsşeni göstərmək olar. Burada xüsusilə vurğulayaq ki, söhbət həmin dini qəbul edib, həmin inancla yaşamaqdan deyil, məhz həmin dəyərləri öz həyatında, düşüncəsində tətbiq etməkdən gedir. XX əsrdə yenə də eyni zərurətdən fəlsəfi məsləhətləşmə kimi yeni bir cərəyan təşəkkül tapdı. Burada öz işini duyğular, xatirələr, hisslər üzərində quran psixologiyadan fərqli olaraq məqsəd məhz düşüncə durğunluğu yaşayan, düşüncə prosesi düyünə düşmüş insanların düşüncəsində bir aydınlıq yaratmaqdır (Bunyadzade, 2019). Sufi fenomenologiya fəlsəfi məsləhətləşmə üçün zəruri olan həmin kompleks yanaşmaya malikdir.

- Sufi fenomenologiya hər iki güclü fəlsəfənin rasional və irrasional metodlarını birləşdirən spesifik metoda malikdir. Sufizmin öz nəzəriyyəsi, sabit prinsipləri vardır və burada Cüneyd Bağdadi, Həllac Mənsur, Mühyiddin İbn Ərəbi ilə yanaşı, həm də bu nəzəriyyəni işıq vasitəsilə təqdim edən Şihabəddin Yəhya Sührəvərdinin görüşləri də ön planda durur. Xüsusilə vurğulayaq ki, sufizmin ruhani təcrübəsi güclü, genişehtivalı və sabit bir nəzəriyyəyə istinad edir. Sərrac Tusi yazır: "Sufilər


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 3, sıra 11 ISSN 2617-751X (Online)

bir elmlə fərqləndirilməzlər. ...Onlarda əvvəldə və axırda mövcud olan bütün elmlərin mənbəyi, bütün fəzilətli halların, şərəfli əxlaqın yeri var. Onlar Allahla haldan hala keçir və daha üstününə can atırlar" (Tusi, 1960, s.40). Göründüyü kimi, Sufizm insanın gündəlik həyatına, əxlaqına, təfəkkürünə birbaşa təsir göstərən, yönləndirən bir təcrübədir.

Fenomenologiya, onun banisi Edmund Husserlin ifadəsi ilə desək, "ciddi bir elm"dir. Bununla yanaşı, filosof onu da bildirir ki, "saf və ya transsendental fenomenologiya öz təsdiqini faktlar haqqında elm kimi yox, mahiyyətlər haqqında elm ("eydedik" elm) kimi tapacaq. İstisnasız olaraq "mahiyyətlərin dərkini" – heç bir "faktı deyil, müəyyənləşdirən elm kimi" (Husserl, 2009, s.20-21). Burada əhəmiyyətli bir məqama diqqət yetirək. Fenomenologiya da şeyin, prosesin məhz mahiyyəti üzərində bərqərardır və ona gedən yolda mane olan bütün keyfiyyət və təəssüratlardan xilas olur, onları mötərizə arasına alır. Sonda yalnız mahiyyət qalır. Təbii ki, bu proses zahirdən, yəni real keyfiyyətlərdən başlayır və mahiyyətə – batinə doğru gedir.

Belə məlum olur ki, Fenomenologiya da, Sufizm kimi təcrübədir. Sadəcə, biri ruhda, digəri şüurda baş verir. Hər ikisi mahiyyətə və nüvəyə doğru irəliləyir. Hər ikisi reallığın xüsusiyyətlərini sonradan əlavə edilmiş qabıq kimi kənara atır. Hərəsi öz metodu ilə. Burada incə və vacib bir məqam var: bu, sadə bir riyazi hesablama deyil ki, artıqlar ümumiləşdirib mötərizəyə alına, yaxud bir sufi meditasiya da deyil ki, ekstaz halında anladıqlarını ifadə etməkdə çətinlik çəkib, yalnız dərviş kimi öz aləmində yaşaya. Sufi fenomenologiya həm rasional, həm də irrasional təfəkkürün bir-birini tamamlanması, fenomenoloji reduksiyanın sufi təcrübə vasitəsilə ilahi aləmə qədər uzadılmasıdır.

Onu da əlavə etmək lazımdır ki, istər sufizmdə, istərsə də fenomenologiyada sərt bir hədd yoxdur. Yəni biri digərini inkar etmir. Bəli, öz üstünlüyünü, hətta yeganəliyini səsləndirsə də, qəti sərhəd qoymur. Çünki öz idrak prosesi boyu şeylərin mahiyyətinə nüfuz etmək üçün ətraf aləmlə arasına divar hörməməlidir. Məhz digər təfəkkür formasına keçidi açıq saxladığına görə, onlar arasında kəsişmə məqamı mövcuddur və nə qədər qəribə də olsa, həmin məqamlar hər iki təlimin qeyri müəyyən, qaranlıq, bir növ diqqətdən kənarda qalan anıdır. Sufi fenomenologiya həmin məqamın təhlilini təklif edir.


www.SID.ir

Archive of SID


### *Fenomenoloji reduksiyadan sufi təcrübəyə keçid və Sufi fenomenologiya*

Sufizmin və fenomenologiyanın təşəkkül şərtlərinə baxanda belə nəticə çıxartmaq olar ki, hər ikisində də inam böyük rol oynayır, sadəcə əks qütblərdə. Sufizm yeni bir dinin əsasında, güclü bir imanın əsasında qurulduğu halda, fenomenologiya əksinə, bu imanın tam böhran zamanında təşəkkül tapıb. Sufism konkret təlim kimi İslam dini zəminində öz fəlsəfəsini və təcrübəsini qurub. Necə ki, İslam dini əvvəlki dinlərin ümumbəşəri prinsiplərini özündə ehtiva edib, yeni şərtlərinə uyğun şəkildə təqdim edib, eləcə də Sufizmin həqiqət axtarışının köklərini qədim Hind fəlsəfəsindən tutmuş, Kabbalaya qədər, Plotin fəlsəfəsindən tutmuş xirstianlığa qədər bir çox dünyagörüşlərdə tapmaq mümkündür. Əslində bu, nəinki normaldır, hətta qanunauyğunludur. İnsan tək mahiyyətlə yaradılıb və Pifaqoru, Konfutsini düşündürən həqiqətlər orta əsrlərin də, bu günün də, hətta gələcəyin filosoflarını da düşündürəcək. Qədim insanların zövq aldıqları gözəlliklər, sənət əsərləri bu gün də zövq verir. Dəyişən şəraitlər, şərtlər, vasitələrdir. Yəni ətrafdır, qabıqdır. İnsanın mənəvi dünyası – nüvəsi isə həminkidir. Bu səbəbdən 2000 il əvvəlki insanla XX əsrin insanı arasında fərqi yalnız zahirdə axtarmaq lazımdır, daxildə isə eynidir. Həmin insan öz həqiqət axtarışlarını zaman-zaman mövcud dinlə əsaslandırmış, əlaqələndirmiş, tanınan vasitələrlə, mərasimlərlə bəlli bir formaya salmışdır. Deməli, sufizmin İslam zəminində universal aləmə qədər uzanan həqiqət axtarışının bir forması olması, həm də onun həmin zəngin potensiala malik olması deməkdir.

Fenomenologiyanı müəyyən mənada şüurun və ruhun “elmiləşməsi” adlandırmaq olar. Bu, XX əsrdə böhrana düşmüş insan şüurunun tələbi, bir növ özünümüdafiə reaksiyası idi. Çünki “Yeni dövrün əvvəlində fəlsəfənin ideallarının və metodlarının bütün dəyişikliklər üçün həlledici əhəmiyyətə malik olmasına yaranmış inam uçulmuşdu” (Husserl, 2004, s.26). Husserl etiraf edir ki, “dünyaya məna verən mütləq ağıla inam məhv olduğuna görə, tarixin mənasına, bəşəriyyətin mənasına, insanın öz fərdi və ümumbəşəri varlığının əqli məna qazanması imkanı kimi anlaşılan azadlığına inamı da uçuldu. Bu inamın itirilməsi o deməkdir ki, insan “özünə”, öz əqli varlığına inamı itirir. O bu varlığa heç də həmişə malik deyil və “mən varam” tezisi ilə də açıq-aşkar malik olmur. O bunu öz həqiqəti, özünü həqiqətdə sezmək uğrunda mübarizədə əldə edə bilər” (Husserl, 2004, s.28). Filosof bir neçə kəlmədə dövrün tam mənzərəsini verir: əqlin uçulmuş idealı, özünə inamını itirmiş insan,


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 3, sıra 11* *ISSN 2617-751X (Online)*

Dekartdan başlayan "var olma" prinsipinin puç və naqis olması, özünü fərqli bir yerdə axtarmağın vacibliyi. Deməli, hər nə qədər zəngin fəlsəfi irsə söykənsə də, fenomenologiya iman kimi güclü vasitədən məhrumdur.

Sufi fenomenologiya qızıl orta mövqeyi təklif edir: sistemli və məntiqli təfəkkürlə yanaşı həm də imana, ilahi biliyə – mərifətə istinad edən fenomenoloji reduksiya. Başqa sözlə desək, bu, insanın zahiri aləmdən təcrid olunaraq diqqətini yalnız həqiqətə yönəltməsinin və bu zaman ilahi bilikləri – mərifəti almağa hazır olmaq prosesinin fərqli bir rakursdan – fenomenoloji baxış bucağından təhlilidir. Burada bir neçə incə məqama xüsusi diqqət yönəldək. Bir tərəfdən, dərk olunmamış şeyi mötərizəyə salmaq, kənarlaşdırmaq düzgün addım kimi dəyərləndirilmir. Yəni irrasional səviyyəyə çatana kimi rasional təmək kifayət qədər möhkəmləndirilməlidir. Deməli, rasional təfəkkür nə qədər sabit və güclü olarsa, onun davamı olacaq irrasional təfəkkür də bir o qədər yüksək ola bilər. Bu, həm də gələcəkdə ilahi biliklərin rasionallaşmaq imkanlarını da artırmış olur. Çünki rasionallaşmamış istənilən bilik, dəyərindən, mahiyyətindən asılı olmayaraq bir şəxsin fərdi təcrübəsindən kənara çıxa bilmir. Bu isə o deməkdir ki, onun sosial varlıq kimi yetişməsində bu düşüncələrin heç bir rolu olmayacaq, hətta onun təcrid olunmasına səbəb olacaq. Digər tərəfdən, irəliləyən şüurla bərabər insanın Mən-inin inkişafı, kamilləşməsi də nəzərdə tutulur.

Sufi fenomenologiyada fenomenoloji reduksiyanı fərqləndirən başlıca amillər də məhz buradan qaynaqlanır. Əvvəla, Husserl hər nə qədər ruh və bədəni fərqli hesab etsə də, onların əlaqəsini qəbul edir: "maddi şey" və "can" – varlığın fərqli sahələridir. Bununla belə, sonuncu birinciyə əsaslanır və buradan da cisim haqqında təlimdə ruh haqqında təlim təşəkkül tapır" (Husserl, 2009, s.64). Ruh bədən haqqında təlim çərçivəsində öyrənilir. Sufi fenomenologiyada reduksiya həmin çərçivədən nəinki çıxır, hətta onun baxış bucağından təkrar cismə təhlil verilir və ruha istinadən cismin xüsusiyyətləri mötərizəyə alına bilir. İkincisi, Husserl ruh haqqında elm deyəndə, haqlı olaraq psixologiyanı, tarixi, sosioloji fənləri, mədəniyyət haqqında elmi qəbul edir. Ruha isə təəssüratları aid edir. Yəni məsələyə tam psixoloji kontekstdən yanaşır. Sufizm imkan verir ki, ruhu təəssüratlar çərçivəsinin fövqünə qaldıraq və onu ilahi biliklərin qazanılmasında, şüurun sonsuzluğa keçməsində bir vasitə kimi nəzərdən keçirək.


www.SID.ir

Archive of SID


Sufi fenomenologiyada iki reduksiya – sufi təcrübə və fenomenoloji reduksiya bir-birini tamamlayır. Məhz sufizmin idrak prosesinə uyğun olaraq reduksiya da hər dəfə daha geniş radius boyu irəliləyən çevrələr boyu davam edir. Digər tərəfdən, Sufi fenomenologiyada reduksiya iki paralel prosesi ehtiva edir – daxili (mən-in özünüdərki) və xarici reduksiya (ətraf aləmin öyrənilməsi). Nəhayət, sufi fenomenogiya nə imanı elmiləşdirir, nə də ağılın imkanlarını mistikləşdirir. Burada insanın rasional və irrasional bilik almaq imkanları paralel götürülür və iman ağıla, ağıl isə imana köməkçi olaraq qəbul edilir. Hər birinin öz sahəsi və öz bacarıqları var və birinin güclü olduğu yerdə digəri zəif ola bilər. Şərt hər ikisinin bərabər irəliləməsi olduğuna görə, burada onlar bir-birini tənzimləyən qüvvələr kimi təqdim edilir. Onu da xüsusilə vurğulayaq ki, söhbət ağıla imandan yox, məhz Allaha imandan gedir.

Məlum olduğu kimi, sufi mütəfəkkirlər öz fikirlərini əksər hallarda şeirlə, metaforik ifadələrlə, simvolik dillə bildirir ki, bu da "ciddi elm" olan fenomenologiya üçün yad görünə bilir. Əslində, istər ruhun stimulunu yüksək tutması ilə, istərsə də, ən ağır hikməti yaddaqalan edən belə ifadələr ciddi teoremlərdən, ağır informasiyadan daha təsirlidir. Məsələn, amerikan şairi Ezra Paund Nobel mükafatı alan Rabindranath Taqora məhz "Qərb həyatının xaosu içərisində unudulan müdrik həqiqətləri bir daha xatırlatdığına görə" xüsusilə böyük dəyər verir.

## *Nəticə*

Fəlsəfi sistemlər haqqında qısa məlumat verəndən və Sufi fenomenologiyanın mahiyyətini tezis şəklində çatdırandan sonra məntiqli bir sual yaranır? Sufizm və fenomenologiya varkən, onlar arasında müqayisəli təhlil aparan bir məqalə ilə məsələyə son vermək olmazdımı? Ayrıca bir fəlsəfi sistemə nə ehtiyac var?

İlk növbədə Sufizmdən başlayaraq qeyd edək ki, təqribən orta əsrlərdən, yəni müəyyən siyasi səbəblərdən, yaxud şəxsi maraqlardan yaranan sufi ordenlərin yaranması ilə əlavə o qədər xüsusiyyətlər meydana çıxdı ki, əsl mahiyyətdən uzaqlaşmağa başladı. Nəticədə bu lazımsız, dövrün tələbi ilə yaranan keyfiyyətlər bütöv təlimi batırmağa, təhrif etməyə başladı. Təsadüfi deyil ki, hazırda Sufizm daha çox ya mistik təlim, ya ekzotik tamaşa, ya da poeziyada bir üslub kimi tanınır. Daha dəqiq desək, onun əslində bir təfəkkür tərzi, şeylərin, başlıcası isə insanın öz mahiyyətini öyrənməyə, dərk etməyə yönəli bir idrak prosesi olması arxa plana itələnib. Fenomenolo-


www.SID.ir

Archive of SID

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

giyada da fərqli bir mövqe formalaşıb. "Ciddi bir elm" kimi fenomenologiyanın əslində bir şüur təcrübəsi olduğu unudulub və ortada yalnız mürəkkəb bir nəzəriyyə qalıb. Düzdür, yuxarıda da qeyd etdiyimiz kimi, fəlsəfi məsləhətləşmədə ona müəyyən dərəcədə müraciət edilir. Bununla belə, yenə də onun əsl missiyası – mahiyyəti dərk etmək funksiyası qeyd edilmir. Maraqlıdır ki, fenomenologiya deyəndə onun bütün mürəkkəb terminləri, transsendental reduksiyası sadalanır, vurğulanır, ancaq bunun əsasında şüurun şeylərin nüvəsini axtarması ikinci dərəcəli məsələ kimi xatırlanır. Dediklərimizdə maraqlı bir məqama da diqqət çəkək: hər iki təlimdə tamamilə əks qütbə çəkilmə və mahiyyətdən uzaqlaşma halı müşahidə olunur. Bəlkə də bu səbəbdən onlar arasında vəhdət nöqtəsi tapmaq çətin görünür. Sufi fenomenologiya hər ikisinin ortaq məqamı üzərində təşəkkül tapmaqla yanaşı, həm də yeni bir mərhələ açmaq iddiasındadır. Yəni bu nə Sufizmin, nə də Fenomenologiyanın davamı, yaxud yeni təfsiridir. Bu, özündən əvvəlki təlimlərdən məhz bu ikisinin bazasından istifadə edən yeni bir fəlsəfi sistemdir.

Bəli, ola bilsin müəyyən məqalələrlə, təhlillərlə bu məsələ öz həllini tapa bilərdi. Əslində, bizim 10 ildən artıq apardığımız tədqiqatlar məhz bu məzmunda və istiqamətdədir. Son işlərimizdən biri VIII əsrdə yaşamış sufi mütəfəkkir Rabiə əl-Ədəviyyə ilə XX əsrdə yaşamış, Husserlin ən yaxın tələbəsi Edith Stein arasında aparılan müqayisə olmuşdur (Bunyadzade, 2018). Lakin bunlar məhz müqayisədir, daha dəqiq desək, yeni fəlsəfi sistemin ilk sınaqlarıdır. Belə məlum oldu ki, bir məqalə, hətta bir kitab çərçivəsində aparılan müqayisə (!) hər iki fəlsəfi sistem arasında paralel çəkməkdən ibarət olur. Bizim məqsədimiz isə hər ikisinin kəsişən məqamlarını təhlil etmək və bu təməl üzərində yeni bir mərtəbə qaldırmaqdır.

Bunlarla yanaşı, yuxarıdakı sualı bir də təkrarlayaq: Neçə əsrlər ərzində var olan fəlsəfi sistemlərdən sonra Sufi fenomenologiyaya nə ehtiyac vardır? Bəli, yuxarıda da qeyd etdiyimiz kimi, fəlsəfi sistemlər çoxdur və hər biri dövrünün ruhunu və düşüncəsini əks etdirib. Son iki əsr ərzində də bu proses davam etməkdədir. Lakin ortada olan mənzərə necədir? Əvvəla, bəşəriyyətin düşdüyü mənəvi və düşüncə böhranında fəlsəfi sistemlər köməksiz vəziyyətdə və müşahidəçi mövqeyindədirlər. Belə bir sual verilə bilər: Hegelin, yaxud Nitsşenin fəlsəfəsi alman xalqını böhrandan çıxarda bildimi? Bəli. Xalq fəlsəfəni oxumaqla, yaxud filosof olmaqla böhrandan çıxmır, sadəcə mövcud durumdan daha üst qata çıxış yolu olduğunu bilməklə və ora öz


www.SID.ir

Archive of SID


xalqından artıq kiminsə qalxdığını bilməklə ruhu oyanır. Fəlsəfə sadəcə işığın yolunu göstərir, o işığa doğru gedib getməmək isə qaranlıqda duran insanın öz seçimidir. Fəlsəfi sistemlərin bu gün yetərsizliyinin nəticəsidir ki, fəlsəfi məsləhətləşmə bütün fəlsəfələri bir yerə cəm edərək böhrana düşmüş və psixoloqlardan – məsələləri hiss və xatirələr səviyyəsində həll edən mütəxəssisdən düşüncəsinn düyünlərini açmağa xahiş edir. Məhz bu amil yeni, həm də insanların bilavasitə böhran dolu dünyalarından çıxış yolu göstərən bir fəlsəfəyə ehtiyacdan xəbər verir.

Onu da mütləq əlavə edək ki, biz Aristotetlin, Hegelin, xüsusilə Husserlin görüşləri ilə yanaşı həm də müqəddəs mətnlpərdən geniş istifadə edəcəyik. Ona görə yox ki, təlimin digər əsas sütunlarından biri Sufizmdir və burada sufi mütəfəkkirlər Bağdadinin, Həllacın və başqalarının görüşlərinə istinad olunacaq. Əsla. Nəzərə alsaq ki, din insanların dünyagöürüşündə, gündəlik həyat tərzlərində, problemlərinin həllinin axtarışında ən çox müraciət etdikləri bir sahədir, üstəlik, illər ərzində insanlar arasında sağlam bir bağ yarada bilir və bugünün insanı neçə əsr əvvəl yaşamış peyğəmbərə, din xadimlərinə inanır, güvənir, o zaman bu inancdan imtina edib, insanların düşüncəsində boşluq yaratmaq əvəzinə, o inancın bütün potensialını idraka yönəltmək üçün ondan düzgün istifadə etmək lazımdır.


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 3, sıra 11* *ISSN 2617-751X (Online)*

## *Edebiyyat*

1. Bunyadzade, K. (2018). *Eshqin hikmeti – Rabie el-Edeviyye ve Edith Stein*. Bakı: Menevi Deyerlerin Tebligi Fondu.

2. Bunyadzade, K. (2019). Felsefi meslehetleshme ve tesevvuf, *Metafizika jurnalı,* cild 2 (3, sıra 7), 7-22. DOI 10.33864/MTFZK.2019.39

3. İslam dusuncesi tarihi. (1990). (Ed. Serif, M.M.). 4 (I), İstanbul: İnsan yayinlari.

4. Qeqel, Q.V.F. (1977). Filosofiya dukha, *Ensiklopediya filosofskikh nauk,* 3(3), Moskva: Mısl

5. Qusserl, E. (2009). *İdei k chistoy fenomenologii i fenomenologicheskoy filosofii*. 1, Moskva: Akademicheskiy proyekt.

6. Qusserl, E. (2004). *Krizis yevropeyskix nauk i transendentalnaya fenomenologiya*. Sankt Peterburq.: Vladimir Dal.

7. Tusi, Ebu Nasr. (1960). *Al-Luma*`. Baghdad: Maktaba al-musna.

**Dr. Kenul Bunyadzade**

## ***Sufi Phenomenology as a New Look at Philosophy***

*(abstract)*

*This article is the first to formulate the statement that Sufi phenomenology is a new philosophical system. The article is divided into three parts.*

*The first section - "A Brief Classification of Philosophical Systems" - explores the causes of the emergence of philosophical systems, the requirements of time and circumstances, as well as the influence of religion and ancient wisdom. In fact, the classification of philosophical systems consists in considering the general picture and determining the place of Sufi phenomenology in it.*

*The second part of the article provides a concisely expounded description of Sufi phenomenology. A brief analysis of the main principles of the new philosophical system, that consists in the intersection of Sufism and phenomenology, is presented. The specificity of the unity of theory and practice is shown, and a method that is equally different from both Sufism and phenomenology is described. An important*



www.SID.ir

Archive of SID


*point here is that the Sufi methodology related to Sufism, that is associated with religion and mysticism, is based on the logic of the 20th century and represents a kind of "eternal philosophy" - "Philosophia perennis", that exists beyond the time and space.*

*The third part of the article examines the specific features of phenomenological reduction, which is the main principle of Sufi phenomenology. First, the factor of faith is analyzed. Then, precisely through faith one can rise to the level of phenomenology, which is a "serious science." Sufi phenomenology is not a science of faith and it does not mystify the possibilities of reason.*

*In parallel, the ability of a person to acquire rational and irrational knowledge is considered, and faith is perceived as reason, while the reason, in turn, is perceived as an assistant to faith. The article emphasizes the fact that Sufi phenomenology includes two parallel processes of reduction which are internal (self-awareness) and external (the study of the surrounding world).*

***Keywords**: Sufism, sufi practice, Sufi phenomenology, philosophical system, phenomenology, Husserl, phenomenological reduction.*

***Др. Кенул Бунядзаде***

## *Суфийская феноменология - новый взгляд на философию*

*(резюме)*

*Статья является первым утверждением, что Суфийская феноменология – эта новая философская система. Статья состоит из трех частей.*

*В первом разделе «Краткая классификация философских систем» исследуются причины возникновения философских систем, а также требования времени и обстоятельства, а также влияние религии и древней мудрости. Фактически, классификация философских систем заключается в рассмотрении общей картины, и определении места суфийской феноменологии.*

*Во второй части статьи суфийская феноменология характеризуется в виде тезисов. В этой части кратко анализируются основные принципы новой философской системы, то есть пересечение суфизма и феноменологии, специфика единства теории и практики, а также метод, который отличается от суфизма и феноменологии. Важным моментом здесь является то, что суфийская методология, включая суфизм, содержащий религиозные и даже мистические оттенки, основанная на логике XX века является представлением своего рода «вечной философии» - «Philosophia переннис», существующей вне времени и пространства.*



www.SID.ir

Archive of SID
**_Beynəlxalq Metafizika Mərkəzi_** **_DOI 10.29228/metafizika._**
**_Metafizika jurnalı_** **_ISSN 2616-6879 (Print)_**
**_2020, cild 3, say 3, sıra 11_** **_ISSN 2617-751X (Online)_**

*В третьей части статьи изучаются специфические особенности феноменологической редукции, которая является основным принципом суфийской феноменологии. Здесь сначала анализируется фактор веры, и именно через нее можно подняться на ступень феноменологии, которая является «серьезной наукой». Суфийская феноменология не наука о вере и не мистифицирует возможности разума.*

*Здесь параллельно рассматривается способность человека приобретать рациональные и иррациональные знания, и вера воспринимается как разум, а разум как помощник веры. В статье подчеркивается тот основной факт, что в суфийская феноменология включает в себя два параллельных процесса редукции - внутреннюю (самосознание себя) и внешнюю (изучение окружающего мира).*

**Açar sözlər:** *Суфизм, суфийская практика, Суфийская феноменология, философская система, Феноменология, Гуссерль, феноменологическая редукция.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 31.07.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 29.08.2020*
*Çapa qəbul edilmişdir: 11. 09. 2020*



www.SID.ir